# Azərbaycan ABŞ üçün vacib ölkə, strateji tərəfdaşdır

## ABŞ Prezidenti Barak Obamanın azərbaycanlı həmkarı İlham Əliyevi IV Nüvə Təhlükəsizliyi Sammitinə dəvət etməsi qarşılıqlı əməkdaşlığın məntiqi nəticəsidir



**ABŞ Prezidenti Barak Obamanın azərbaycanlı həmkarı İlham Əliyevə Vaşinqtonda keçiriləcək IV Nüvə Sammitində iştirakı barədə göndərdiyi məktubunda Azərbaycana səmimi münasibət diqqət çəkir. ABŞ Prezidenti Barak Obamanın 3 dekabr 2015-ci il tarixli dəvət məktubunda yazılır: "Azərbaycan qlobal nüvə təhlükəsizliyi arxitekturasına qətiyyətli dəstək nümayiş etdirir. Ümidvaram ki, Azərbaycan nüvə və radioloji tökuntülərinin qadağası üçün xüsusi səylərini davam etdirəcəkdir."**

Dövlətimizin başçısının bu günlərdə Birləşmiş Ştatların Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Çarlz Kapçanı qəbul etməsi, görüş zamanı münasibətlərin davamında tərəflərin maraqlı olması barədə səslənən fikirlərdən də aydın olur ki, daxili və xarici siyasəti beynəlxalq aləmdə dəstəklənən, nüfuzu möhkəmlənən Azərbaycanla ABŞ arasında əlaqələr hərtərəfli və dinamik inkişaf edir. Yəni hər iki ölkə arasında əlaqələrə kölgə salmağa çalışan, ölkəmizə qarşı düşmən mövqeyini hər zaman gündəlikdə saxlamaqda maraqlı olan dairələrin qərəzli şəkildə bildirdikləri kimi, münasibətlər emosional düşüncələrə deyil, tarixi köklərə, sağlam, qarşılıqlı əməkdaşlığa əsaslanır.

...İkitərəfli münasibətlərin strateji tərəfdaşlıq səviyyəsində qiymətləndirilməsi, ölkəmizə marağın artması enerji layihələrinin əsas təşəbbüskarı və tərəfdaşı olan Azərbaycanın diplomatik uğurlarının məntiqi nəticəsidir. Təməlində ulu öndər Heydər Əliyev siyasi müdrikliyi dayanan respublikamızın dünyada möhkəmlənən rolunun məmnunluqla qeyd olunması ölkəmizin artan regional nüfuzu, xarici siyasətinin milli maraqlar əsasında təkmilləşməsidir.

Çoxillik tarixə malik ABŞ-Azərbaycan əlaqələri 2001-ci ilin sentyabrında Nyu- Yorkda baş verən dəhşətli terror aktından sonra yeni mərhələ üzrə davam etdirilir. Ulu öndər Heydər Əliyev həmin terror hadisəsindən sonra ABŞ-ın yaratdığı beynəlxalq antiterror koalisiyasına qoşulmaqla rəsmi Vaşinqtonun təşəbbüsünü dəstəklədiyini bildirdi. ABŞ rəsmiləri də dəfələrlə etiraf edirlər ki, Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə Birləşmiş Ştatların yanında olmaqla NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramı çərçivəsində də üzərinə düşən öhdəliyə sadiq qalır. Azərbaycan hərbçiləri Kosovoda, İraqda, Əfqanıstanda sülhyaratma əməliyyatlarında fəal iştirak ediblər.

Dünyanın supergücə malik dövləti kimi mövqeyini qoruyan ABŞ-ın Azərbaycanla strateji əməkdaşlığının müxtəlif istiqamətlər üzrə davam etdirilməsi siyasi dialoqların möhkəmləndirilməsinə stimul yaradır.

Qarşılıqlı əməkdaşlığın nəticəsidir ki, 1992-ci ildən Azərbaycana qarşı əsassız tətbiq olunan 907-ci düzəlişin ədalətsizliyi təsdiqləndi. ABŞ hökuməti ermənilərin təhriki ilə tətbiq olunan qərarın fəaliyyətini bir illik dondurması ilə bağlı qərar qəbul etdi. Həmin vaxtdan qərar hər il yenidən təsdiqlənir.

Bəllidir ki, ABŞ-Azərbaycan əlaqələri enerji, təhlükəsizlik və demokratiyaya dəstək istiqamətində daha çox diqqət çəkir və səmərə verir. Ümummilli lider Heydər Əliyevin neft strategiyasının əhəmiyyətini düzgün qiymətləndirən, "Əsrin müqaviləsi"nin imzalanmasında, enerji təhlükəsizliyi layihələri ilə bağlı aparılan danışıqlarda Azərbaycanın təşəbbüslərini dəstəkləyən supergücə malik olan ABŞ bu günə qədər mövqeyinə sadiqlik nümayiş etdirir. Qərblə Şərqi birləşdirən, Azərbaycanın bilavasitə iştirakı və maliyyə dəstəyi ilə çəkilən beynəlxalq nəqliyyat infrastrukturu - tarixi İpək Yolunun bərpası kimi böyük önəm daşıyan Bakı-Tbilisi -Qars dəmiryolu ABŞ-ın maraq göstərdiyi layihədir. Enerji sahəsində əməkdaşlığa dair Memorandum imzalayan tərəflərin mövqeləri dəyişməz olaraq qalır. Bütün qlobal enerji layihələrində hasilatçı, istehsalçı, tranzit ölkə kimi respublikamızın liderliyinə diqqət çəkən ABŞ Prezidenti Barak Obama ənənəvi olaraq hər il Bakıda keçirilən Xəzər neft-qaz, neft kimyası sərgisi və konfransına ünvanladığı məktubunda qeyd edir ki, Cənubi Qafqaz iqtisadiyyatının 85 faizinə sahiblik edən Azərbaycan regionun və Avropa Birliyi dövlətlərinin enerji təhlükəsizliyinin təminatında böyük potensiala malikdir.

2013-cü ildə keçirilən prezident seçkilərində ümumxalq etimadı qazanaraq qalib olan dövlətimizin başçısı İlham Əliyevə uğurlu qələbə qazanması münasibətilə təbrik məktubu göndərən amerikalı həmkarı bildirir ki, ABŞ Azərbaycanı öz strateji tərəfdaşı hesab edir və qarşıdan gələn dövrdə iki ölkə arasındakı əlaqələri daha da inkişaf etdirmək əzmindədir. Dünya siyasi arenasında söz sahibi olan, hadisələrə təsir imkanları artan, qüdrəti, nüfuzu ilə seçilən ölkəmizə Birləşmiş Ştatların belə isti, səmimi münasibəti göstərir ki, ABŞ-Azərbaycan dostluq və əməkdaşlıq münasibətləri əbədi inkişaf yolundadır.

Birləşmiş Ştatlar qlobal problemlərin həllində mövqeləri oxşar olan Azərbaycanı regionda etibarlı və strateji tərəfdaş kimi dəstəkləyir, əlaqələrin müxtəlif istiqamətlər üzrə davamında maraqlıdır.

Davam edən ikitərəfli əlaqələr regional sabitliyə mühüm töhfələr verir. Azərbaycanın əldə etdiyi uğurlu iqtisadi və sosial tərəqqini alqışlayan və tərəfdaşlığın gücləndirilməsinə, eləcə də ortaq çağırışlar üzrə əməkdaşlığımızın dərinləşdirilməsinə sadiq qalan ABŞ-ın rəsmi dairələrinin iki ölkə arasında əməkdaşlığı daha da dərinləşdirmək siyasətinə sadiq qaldığın ifadə etməsi, həm ikitərəfli formatda, həm də son illər BMT Təhlükəsizlik Şurası çərçivəsində ifadəsini tapıb. İki ölkə arasında əməkdaşlığın yüksək qiymətləndirilməsi, regionda və dünyada sülh və sabitliyin təmin olunmasına, beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycanın rolunun xüsusi qeyd olunması ölkəmizin beynəlxalq aləmdə artan nüfuz və mövqeyinin ifadəsidir.

İllərin təcrübəsindən də aydın olur ki, Azərbaycanla ABŞ arasında əməkdaşlıq üç istiqamətdə uğurla inkişaf edir: təhlükəsizlik, energetika və demokratiya. İki ölkə arasında təhlükəsizlik və enerji sahəsində əməkdaşlığa dair imzalanan Memoranduma əsasən, qlobal layihələrin reallaşmasında hər iki dövlətin mövqelərində oxşarlıq hiss olunur. 90-cı illərin ortalarında neft və qaz yataqlarının işlənilməsi üçün beynəlxalq sərmayəçilərin Azərbaycana dəvət edilməsi, Şərq-Qərb enerji dəhlizinin, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin reallaşması Azərbaycanın xüsusi nailiyyətidir.

Azərbaycanın müəllifi olduğu, regionun, Avropanın enerji təhlükəsizliyinin təminatında vacib rola malik enerji layihələrinin həyata keçirilməsinə ABŞ hər zaman dəstək göstərəcəyini bildirir. Mühüm transmilli enerji layihələrinin reallaşdırılmasında, iqtisadiyyatın şaxələndirilməsində, regional sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsində və digər məsələlərin həllində Prezident İlham Əliyevlə sıx əməkdaşlıq siyasətinə sadiqlik ifadə olunur.

Bakıda keçirilən "Cənub" qaz dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin görüşündə çıxış edən ABŞ Dövlət Departamentinin enerji ehtiyatları bürosunun xüsusi nümayəndəsi Amos Hoçsteyn tədbirdə Amerika Birləşmiş Ştatları Hökuməti adından iştirak etdiyini məmnunluqla vurğulamaqla bildirdi ki, Prezident İlham Əliyevin marşrutların şaxələndirilməsi ilə əlaqədar təşəbbüsləri çox əhəmiyyətlidir: "Əlbəttə marşrutlar yalnız təchizat mənbələrinin şaxələndirildiyi təqdirdə mühüm əhəmiyyət kəsb edir. Bu iki amildən biri olmadıqda, enerji təhlükəsizliyi mümkün deyil. "Cənub" qaz dəhlizi bu iki amilin hər ikisini özündə birləşdirir və buna görə də Avropanın enerji təhlükəsizliyinə dəstək verilməsi ABŞ Hökumətinin həmişə strateji məqsədi olub və bundan sonra da olacaq."

ABŞ nümayəndəsi enerji təhlükəsizliyi məsələlərinin hərtərəfli əhəmiyyətinə toxunaraq Azərbaycanın bu istiqamətdə davam etdirdiyi səylərinin dünya enerji bazarında oynadığı rolu yüksək qiymətləndirdi: "Enerji təhlükəsizliyi məsələsi təkcə enerji ilə bağlı deyil. Bu, sabitlik deməkdir. Geosiyasi sabitlik bu regionların iqtisadi firavanlığı deməkdir. "Cənub" qaz dəhlizi bizim üçün, eyni zamanda, fikirləşirəm ki, burada əyləşən hər bir insan üçün Avropanın enerji təhlükəsizliyinin təməl daşıdır. "Cənub" qaz dəhlizi təkcə tranzit ölkələr və son nöqtə olan İtaliya üçün deyil. "Şahdəniz"" konsorsiumunun 2-ci və 3-cü fazaları işə düşən zaman bu layihəyə əlavə qaz resursları cəlb oluna və beləliklə, bu layihənin potensialı daha da arta bilər."

Bu sözlər bütünlükdə ABŞ-ın rəsmi mövqeyini əks etdirir və layihənin aparıcı tərəfdaşı Azərbaycanın dünyada möhkəmlənən rolunun etirafıdır. ABŞ-ın "Cənub" dəhlizi, TANAP, Transadriatik layihələri ətrafında aparılan danışıqlarda Azərbaycan amilinin vacibliyini xüsusilə vurğulaması isə ölkəmizə artan marağın davamlı olmasıdır.

Dünyanın enerji təhlükəsizliyinin təmin edilməsi, beynəlxalq terrorizmə qarşı mübarizə, münaqişə zonalarında sülhün və sabitliyin əldə edilməsində hər iki dövlətin birgə iştirakı strateji tərəfdaşlıq nümunəsidir. Birləşmiş Ştatlar regionda Azərbaycanı özünə etibarlı və strateji tərəfdaş kimi qəbul edir, əlaqələrin müxtəlif istiqamətlər üzrə inkişafında maraqlıdır.

Ötən illərdə Azərbaycanda səfərdə olan ABŞ-ın 300 nəfərlik nümayəndə heyəti ölkəmizdəki siyasi, iqtisadi uğurları da düşünülmüş siyasətin məntiqi nəticəsi kimi yüksək dəyərləndirdilər. Belə qarşılıqlı əməkdaşlığın nəticəsidir ki, Birləşmiş Ştatlarda Azərbaycan ABŞ-ın ən yaxın və strateji müttəfiqi adlandırılır, ölkəmizin təşəbbüsü ilə reallaşdırılan enerji layihələrinin rəsmi Vaşinqtonun maraqları ilə üst-üstə düşməsindən məmnunluq ifadə olunur.

Antiterror koalisiyasının etibarlı üzvü kimi də Azərbaycanın mövqeyi ABŞ rəsmiləri tərəfindən bəyənilir. Həmişə olduğu kimi, yenə də regional, enerji, dəniz, sərhəd təhlükəsizliyi sahəsində görülən işlər, beynəlxalq terrorizmə qarşı mübarizədə əməkdaşlıq, təmsil olunduqları nüfuzlu təşkilatlarda birgə fəaliyyət prinsipləri ətrafında aparılan müzakirələr səmərəli olur.

Daha çox diqqət çəkən Azərbaycanın Əfqanıstan məsələsində Vaşinqton üçün mühüm əhəmiyyətə malik olması layiqincə qiymətləndirilmişdir.

ABŞ-ın strateji əhəmiyyət verdiyi digər məsələ demokratik islahatlar sahəsində əməkdaşlıqdır. 9 oktyabrda Azərbaycanda keçirilən prezident seçkilərini izləyən ABŞ-ın çoxsaylı müşahidəçilər missiyasının verdiyi bəyanatlarda da ölkəmizdəki demokratiyanın bəşəri dəyərlərə sadiqliyin nümunə göstəriləcək səviyyədə inkişafı etiraf edilir. Göründüyü kimi, ABŞ-Azərbaycan müttəfiqliyi böyük təkamül yolu keçmiş, dostluq və əməkdaşlığımız hazırkı strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində, problemin nizamlanmasında vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupu həmsədr ölkələrin - ABŞ, Fransa və Rusiyanın birgə qəbul etdikləri Dovil bəyannaməsi, rəsmi Vaşinqtonun Dağlıq Qarabağ probleminin nizamlanmasında tutduğu mövqe ölkəmiz üçün önəmlidir.

Dovildə münaqişə ilə bağlı qəbul edilən bəyanatda status-kvonun aradan qaldırılması irəli sürməklə Azərbaycanın haqlı mövqeyini təsdiqləyən Amerika rəsmiləri bildirirlər ki, münaqişənin həllinin vaxtı çatıb. Prezident Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədovun "Bu münasibətlər hansısa təsadüfi, ötəri maraqlar üzərində qurulmayıb. Postsovet məkanında Qərb dövlətləri, eyni zamanda ABŞ-la hərtərəfli və uğurlu əməkdaşlıq edən əsas ölkələrdən biri Azərbaycan olub" sözləri münasibətlərin hər iki dövlətin maraqları baxımından xarakterik olduğunu bir daha təsdiqləyir.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***